

# Böyük ürəkli, ləyaqətli insan

*Səmimiliyinə, insanlığına və məğrurluğuna məftun olduğum, böyük ürəyinə, alicənablığına səcdə etdiyim Ədibə xanım Mir Cəlal qızı Paşayeva haqqında yazmaq, onu uzun illərdir tanıdığım kimi xarakterizə etmək, bu əvəzsiz insana sonsuz ehtiramımı bildirmək arzusu bitib-tükənmir. Lakin hər dəfə adətən doğum günləri ərəfəsində yazmaq qərarına gələndə, xasiyyətinə yaxşı bələd olduğumdan sözləri ölçüb-biçərək qələmə almağa çalışıram. Atası - böyük ədibimiz, əvəzsiz pedaqoq, yüksək ədəb-ərkan sahibi Mir Cəlal Paşayevdən əxz etdiyi təmkinli danışıq tərzi, sadəliyi və bir də təvazökarlığı onu insanlığın ən uca zirvəsinə ucaldıb. Hamımız insan kimi doğuluruq. Amma müdriklik hər kəsə nəsib olmur və mənim aləmimdə burada yaşımızın da heç bir əhəmiyyəti yoxdur.*

Ağıl, düşüncə, nəciblik və soykök kimi amillər bir-biri ilə vəhdət yaradaraq müdrikliyə gətirib çıxarır. Yüksək intellektə malik, incə və saf duyğularla daxili aləmi zəngin olan Ədibə xanım Paşayevanın doğum günü ərəfəsində növbəti yazıma başlayarkən onun aydın, heç vaxt dəyişməyən doğma baxışlarını gözlərim önünə gətirib düşündüm: Bu insanın boyuna bütün gözəl, ali xüsusiyyətləri Yaradan necə də gözəl ölçüb-biçib… Onu tanıyan, görən və xarakterinə yaxından bələd olanlar üçün yazdıqlarım bəlkə də təkrar kimi görünəcək. Doğrudur, illərlə gördüyüm ucalıqda dayanan bu insanı hər kəs öz istədiyi kimi dəyərləndirə bilər. Mən şahid olduqlarıma, qayğıkeşliyin və mərhəmətin zirvəsini fəth edərək əsla sadəliyindən bir addım geri qalmayan bu böyük insanın, ismətli qadının ədəb-ərkanı ilə müəllimliyini, alimliyini şərəfləndirən və sözün əsl mənasında, insanlığa şöhrət qazandıran özünəxas keyfiyyətlərinə görə onun seçilmişlərdən biri olduğunu deyə bilərəm. Əslində, mən bu yaşımda belə Ədibə xanımdan çox şey əxz edir və bundan da qürur duyuram. Gerçəkliyin, səmimiliyin, kamilliyin, humanistliyin və son dərəcə daxili saflığın simvoludur mənim üçün Ədibə xanım Paşayeva. Yüksək mədəniyyətə malik olmaq və sonsuz sadəliyi ilə ürəkləri fəth etmək ilahidən boyuna biçilibdir onun. Mən bu kiçik yazımda onun elmimizə verdiyi töhfələrdən deyil, insanlığa örnək olan xüsusiyyətlərindən, həmkarlarına, keçmiş və bugünkü tələbələrinə əsirgəmədiyi diqqətindən, qayğısından söz açmaq istəyərəm. Dediyim kimi, düşüncələrimi ehtiyatla qələmimə alır, gördüklərimin, şahid olduqlarımın hamısını yazmağa cürət etmirəm, çünki Ədibə xanımın təvazökarlığını bilərək hər fikrə, ifadəyə həssaslıqla yanaşıram.

Ədibə xanımın elmi-ədəbi və pedaqoji fəaliyyətinə dövlətimiz tərəfindən layiqincə qiymət verilib. 2000-ci ildə "Tərəqqi" medalı ilə təltif olunan görkəmli alim 2013-cü ildə "Qabaqcıl təhsil işçisi" və "Əməkdar müəllim" fəxri adlarına layiq görülüb. Bakı Dövlət Universitetinin 100 illiyi ilə əlaqədar "3-cü dərəcəli əmək ordeni" ilə təltif edilib. O bu fəaliyyətini özünün amalı hesab edərək pedaqoq peşəsinin zirvəsində dayanıb. Ədibə xanım Paşayeva universitetin ictimai həyatında daim fəal iştirak edib, gənclərin təhsilə daha sıx bağlanması istiqamətində səmərəli işlər görüb, hər birimizin yolgöstərəni olub və bu gün də belədir. Yüzlərlə kitab, monoqrafiya, dərslik və dərs vəsaitlərinin elmi redaktoru, müəllifi, həmmüəllifi və rəyçisi olaraq bu işlərə xüsusi məsuliyyətlə, sevgi hissi ilə yanaşır. Hər kəlməyə, hər cümləyə diqqət ayırır, zaman xərcləyir, müəlliflərə dəyərli məsləhətlər, tövsiyələr verir. Bu sahədə də onun sonsuz kübarlığı və elmi yanaşması ilə heç vaxt heç kəsə bənzəməyib. Yəni sözün tam mənasında bənzərsizdir Ədibə xanım! Bəli, elə bu bənzərsizliyi, yüksək insani keyfiyyətləri, təmkinliliyi, mədəniyyəti, tədris etdiyi fənni dərindən bilməsi və tələbələrə aşılamaq qabiliyyəti Ədibə xanımı hər zaman hamıya sevdirən xüsusiyyətlərdəndir. Onun baxışlarının ləkə götürməyən aydın aynasında hər kəs nəsə görür, götürür. Budur, cəmiyyətdə işıqlı insan olmaq. Sevənləri, ona yaxın olmaq istəyənlər minlərlədir və hamısının da onun geniş ürəyində öz yeri var. Dünyaya baxışı, yaxşıya və yaxşılığa dəyər vermək qabiliyyəti, nikbinliyi və ətrafında olanlara sonsuz ehtiramı Ədibə xanımı qadınlığa örnək - insanlığa şərəf zirvəsinə yüksəldib.

Bakı Dövlət Universitetində uzun illərdir tədris etdiyi fənni insanlıq dərsi ilə birlikdə tədris edib desəm, bu fikrim daha doğru səslənər. Elmin mayası həqiqətlə, sevgi ilə yoğrulanda zirvəyə qalxa bilir və qaldıra bilir ona könül verəni.

Ədibə xanımın iştirakçısı olduğu yüzlərlə tədbirlər, görüşlər, söhbətlər əvəzsiz həyat dərsləri kimi yaddaşlarda dərin izlər salır və unudulmur. Onunla ani görüş, sual verib cavab almaq belə, hər kəs üçün obyektivliyin, əlçatanlılığın, böyüklüyün, mehribanlığın örnəyi, insanlığın açıq dərsidir, deyə düşünürəm. Onunla ani söhbət, adi görüş insanın ki, qəlb oxşayır, insanı mənən qidalandırır. Professor Ədibə Paşayevanın büllur kimi saf, günəş şəfəqləri kimi aydın zəkasının işığı minlərlə tələbəsinin düşüncəsində dərin iz salıb. Yetirmələri isə ondan öyrəndiklərini, görüb-götürdüklərini xeyirxahlığın nümunəsi kimi həyata keçirirlər.

Professor Ədibə xanım Paşayevanın xanımlığı da, analığı da, cəfakeş həyat yoldaşı olmağı da qeyri-adi məhəbbətlə yoğrulub. Sarsılmayan dağlara, qurumayan çaylara, ədəbi alovlara, məşələ bənzəyən, istisindən milyonların donmuş ürəyinə pay verə bilən bu ailənin fövqündə pak sevgi dayanır. Qaynının, qohumlarının onun haqqında dediklərinə əsasən düşünürəm ki, nə yaxşı dünyada belə insanlar var, nə yaxşı dünyada bu gün bizə, gələcək nəsillərə dərs verən Ədibə xanım Paşayeva kimi qadınlar, gəlinlər, ömür-gün yoldaşları var. Onun rəhmətlik ömür-gün yoldaşı, Milli Təhlükəsizlik Nazirliyinin polkovniki, qorxmazlıq və cəsarət nümunəsi olan, əyilməz zabit Eldar Qasımovun Ədibə xanıma verdiyi dəyər, sevgisi cild-cild kitablara sığmayan çox geniş mövzudur. Hər qadına nəsib olmur ki, həyat yoldaşı: "Mən bu gün həyatda Ədibəyə görə yaşayıram və yaşamaq istəyirəm" desin. Bu, möhtəşəm sevgidən dünyaya gələn gözəl övladlar böyüdüb, onları xalqına, cəmiyyətə layiqli vətəndaş kimi yetişdirən bir qadının, bir ananın, bir həyat yoldaşının ən böyük dəyəridir.

Beləliklə, düşündüklərimi tam yaza bilmədim. Düşünürəm ki, dövr, zaman sürətlə dəyişdiyi kimi, insanlar da, münasibətlər də dəyişir. Dəyişməyən, sabit xarakterli bütöv insanlar, şəxsiyyətlərdir ki, nümunə göstərmək üçün onların da haqqında söz açılmalı, yazılmalıdır. Professor Ədibə xanım Paşayeva haqqında qələmə aldığım bu yazını hörmətli həmkarlarım və öz adımdan qarşıdan gələn doğum günü ərəfəsində ona ünvanlayır və deyirəm: "Nə yaxşı ki, varsınız, nə yaxşı ki, örnəksiniz, nəsillərə, bizlərə, ətrafınıza… Ananızın südü, atanızın haqqı halalınız olsun".

**Sona ÇƏRKƏZ,**
**BDU-nun baş müəllimi,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü.**